https://doi.org/10.59849/2710-0820.2026.1.190

**Şölə Məmmədova**
*AMEA Tarix və Etnologiya İnstitutunun Azərbaycanın*
*VII-XIV əsrlər tarixi şöbəsinin kiçik elmi işçisi*
*Azərbaycan*
*shela.mammadova@yahoo.com*
*0009-0004-5762-1702*

# AZƏRBAYCANIN İSLAM AREALINA DAXİL OLMASI

***Açar sözlər:*** *Azərbaycan, Ərəb xilafəti, İslam dini, xristianlıq, tenqriçilik*

## Giriş

Azərbaycan qədim dövrlərdən Şərq və Qərb arasında mühüm yaşayış məskənlərindən biri olmuşdur. Azərbaycanın belə əlverişli coğrafi ərazidə yerləşməsi daima yadellilərin diqqətini cəlb etmiş, müxtəlif dövrlərdə Azərbaycan ərazisi fərqli dövlətlərin tərkibində olmuşdur. Azərbaycan ərazisində tarix boyu hökm sürən dövlətlər sırasında Azərbaycanı böyük bir dini mədəniyyətin bir parçasına çevirən Muhəmməd Peyğəmbərin (s.a.v.) Ərəbistanda 630-cu ildə əsasını qoyduğu İslam dövləti olmuşdur. Öz əsasını ilahi qanunlardan alan bu dövlət bizə İslam dinini çatdırmışdır.

İslamdan əvvəlki dövrlərdə Qafqaz ölkələri dəfələrlə güclü qonşu dövlətlərin, Sasani İranının və Bizansın hücümlarına məruz qalmışdır. Bu dövlətlər zəngin torpaqları və coğrafi cəhətdən çox əlverişli, mühüm bir ərazini işğal etmək məqsədilə bir-biri ilə rəqabət aparırdılar. Dağıdıcı və fəlakətli müharibələr Qafqaz xalqlarına böyük məhrumiyyətlər gətirirdi: şəhərlər viran olur, əhali qırılır, minlərlə adam əsir alınıb yad ellərə aparılır, maddi və mənəvi mədəniyyət tənəzzül edirdi. Siyasi sabitliyin tez-tez pozulması nəticəsində Azərbaycan gah güclü dövlətlərdən asılı vəziyyətə düşmüş, gah da yenidən istiqlaliyyətini (Albaniya) bərpa etmişdi. (Paşazadə, 1991,s. 34).

Bu zaman Ərəb xilafəti Atlantik okeanı sahillərindən Hindistan və Çinə qədər uzanan böyük bir imperiya olmuşdur. Sasani imperiyası bu dövrdə Ərəb xilafətinin tərəfindən fəth olunur. Azərbaycan ərazisi isə Azərbaycan və Arran əyalətləri adı altında Ərəb xilafətinin tərkibinə daxil edilir.

Şeyxülislam Allahşükür Paşazadənin "Qafqazda İslam" kitabında qeyd olunduğu kimi, necə olmuşdur ki, tarix səhnəsinə ərəb dilində ərəb Peyğəmbər vəsitəsilə göndərilmiş İslam dini bütün baxımlardan son dərəcə qısa bir vaxtda Ərəbistan yarımadası hüdudlarından xaricə çıxa bilmiş, Hindistan vadilərindən tutmuş, Atlantik okeanı sahillərinə qədər böyük bir ərazidə yaşayan xalqların dünyagörüşünün, ictimai əhval-ruhiyyəsinin və davranışının təməlini təşkil etmiş, onların dövlət-hüquq quruculuğunu, təsərrüfat fəaliyyətini, əxlaqi və bədii duyum yönlərini və sair, sözün ən geniş mənasında desək, həyat və təfəkkür tərzini müəyyənləşdirmişdi.

Səhabilərin Allahın onlara göndərdiyi dini bütün dünyaya yaymaq istəyi, bu yolda öz canlarından belə keçməyə hazır olmaları, hüdudsuz əzmləri bu dinin qısa zamanda geniş ərazilərdə yayılmasına səbəb oldu.

İslam dini qısa müddətdə digər ərazilərdə olduğu kimi Azərbaycan ərazisində də yayılmış, onun hər sahədə müsbət təsirləri Azərbaycandan da yan keçməmişdi.

## İslamdan əvvəlki dini inanclar

İslamın yayılmasından əvvəl Azərbaycanın dini mənzərəsi müxtəlif istiqamətli və ziddiyyətli olmuş idi. Xristianlıq belə zərdüştilik, bütpərəstlik və digər yerli ibtidai inanclarla yanaşı mövcud olmuş, bəzi hallarda bir-birinə sintez olunmuşdular. Azərbaycanın dini-mədəni tarixinin formalaşmasında İslamdan əvvəlki inanc sistemləri mühüm yer tutmuşdu. Bu sistemlər arasında xüsusi yeri tenqriçilik inancı tuturdu. Tenqriçilik inancı, əsasən, Orta Asiya və Altay

bölgəsində, Qafqaz və Ön Asiya, o cümlədən Azərbaycan ərazisində yayılmışdı. Azərbaycanın qədim sakinləri olan hunlar, sabirlər, oğuzlar, xəzərlər kimi türkmənşəli tayfalar bu inanca sahib idilər.

Rusiyalı arxeoloq N. M. Yadrıntsev ilk dəfə olaraq 1889-cu ildə qədim türk abidələrini kəşf etdi. 1895-ci il noyabrın 25-də danimarkalı tarixçi Vilhelm Tomsen və alman əsilli rusiyalı türkoloq Vasili Radlov Orhon-Yenisey daş kitabələrindəki yazıları çözməyə müvəffəq oldular ki, ilk oxunan tenqri (tanrı) sözü idi. Daş kitabələrdəki yazılar türklərin qədim tarixə və yazı mədəniyyətinə malik olduqlarının əyani sübutudur. Tenqri termini qədim türk mifologiyasına aiddir və güman edilir ki, e.ə. III əsr hun dilində mövcud olmuşdur. (Cəbrayılova, 2019). Orhon-Yenisey abidələrindən göründüyü kimi tanrı sözü əslində tenqriçilikdən qalıb və islamla heç bir əlaqəsi yoxdur. Tenqriçilik İslam, xristianlıq və yəhudilik kimi ilahi din deyildi. Yəni, tenqriçilikdə peyğəmbərlik anlayışı, vəhy yolu ilə ilahi kitabın nazil olunması yoxdur, ibadət və şəriət sistemi mövcud deyil. Yəni, tenqriçilik ilahi mənşəyə malik din deyil, erkən dini inanc idi.

Eyni zamanda İslamın yayılmasından əvvəl Azərbaycanda zərdüştilik də geniş yayılmışdı. Tarixi qaynaqlar və arxeoloji sübutlar göstərir ki, Azərbaycan ərazisi e.ə. VI əsrdən etibarən Əhəmənilər imperiyasının tərkib hissəsi kimi zərdüştilik dininin nüfuz dairəsinə düşmüşdü. (Boyce,2001, s. 18-19)

Miladdan sonra 224-cü ildə Sasani dövlətinin yaranması ilə əlaqədar olaraq zərdüştilik Atropatenada (cn. Azərbaycan) da dövlət dini elan olunmuşdu. Zərdüştilik təlimini öz siyasətinə tabe etdirmiş Sasani şahı I Şapur (miladdan sonra 241-272-ci illər) bu dinin şahlıqdan asılı olan bütün əyalətlərdə zor gücü ilə olsa belə yayılması haqqında fərman vermişdi. Bu tədbirə qarşı çıxanlara ağır cəza verilirdi. Sasanilərin bu siyasəti bir neçə əsr davam etmişdi. Şahənşah II Yezdəgerd (miladdan sonra 438-457-ci illər) "zorla yerli əyanlardan tələb edirdi ki, onlar bu dinin yayılmasına kömək etsinlər. Şah Albaniyaya 700 kahin göndərdi. Onlar xristian kilsələrini dağıtmağa başladılar. (Paşazadə, 1991, s.34)

İslamdan əvvəl Azərbaycanda yayılmış dini inanclardan biri də manilik idi. Manilik zərdüştilik və xristianlığa qarşı idi. Sasanilər maniliyi təqib etsələr də, bu dini təlim surətlə, həm də daha çox şəhər əhalisi arasında yayılırdı. Təqibdən yaxa qurtarmağa çalışan Mani 273-cü ildə İrandan qaçır, ancaq bir neçə ildən sonra ələ keçir və edam olunur. Maniliyin ardıcılları qonşu ölkələrə dağılır və öz baxışlarını təbliğ etməyə başlayırlar. Onların bir qismi Qafqaza gəlir. (Paşazadə, 1991, s.38).

Bütün bu dini inanclar Azərbaycan ərazisində yayılsa da, xristianlıqdan başqa onlardan heç biri ilahi din deyildilər. İnsanlar tərəfindən yaradılan dinlər idilər. Ona görə də bütün xalqı öz ətrafında birləşdirə biləcək, insanların müdaxiləsinə məruz qalmamış ilahi bir dinə ehtiyac vardı. Bu da mövcud ruhani siniflərə və ibadət sistemlərinə qarşı yeni, təmiz bir anlayışın bu ərazidə də yayılmasını qaçılmaz edirdi. İslam da xristianlıq ilə yanaşı olaraq bu boşluğu tamamlamaqla, mövcud dini inancları öz çərçivəsində əritməyi bacardı.

**Azərbaycanda xristianlıq**

İslamın meydana çıxması ərəfəsində bütün Qafqazda, eləcə də Albaniyada xristianlığın mövqeyi olduqca güclü idi. Tarixən alban kilsəsi nəinki Qafqazda, həm də bütün xristian dünyasında ən qədim kilsələrdən biri olmuşdur. Alban tarixçilərinin məlumatlarına əsasən və eləcə də bir sıra qədim qaynaqlarda göstərildiyi kimi, miladdan sonra I əsrdən başlayaraq xristianlığın ilk təbliğçiləri - Qüdsdən və Suriyadan həvarilər və həvari şagirdləri Albaniyaya da yayılırlar və burada ilk xristian icmaları yaradılır. Bu icmalar əsasən ölkənin şimal ərazilərində fəaliyyət göstərirdilər, həm də hələ bir o qədər də güclü deyildilər.

Miladdan sonra 313-cü ildə Albaniya şahı Urnayr xristianlığı ölkənin dövlət dini elan edir. Xristianlığın qəbul edilməsi o dövr üçün olduqca mütərəqqi hadisə idi və başqa yerli inamlara nisbətən ölkənin ərazi birliyinə, dövlətin möhkəmliyinə, əhalinin mədəni inkişafına daha müsbət təsir göstərirdi. (Paşazadə, 1991,s.40) Lakin bildiyimiz kimi, xristianlıq ilahi din olsa belə, incilə insanlar tərəfindən edilmiş müdaxilələrlə təhrif olunmuş dindir. Ona görə də yeni, insanları vahid etiqadda birləşdirəcək təhrif olunmamış dinə ehtiyac vardı. İslam öz gəlişilə bu boşluğu da doldurdu və xalqımızın gələcək

müsəlman türk dövlətlərində (Sacilər, Salarilər, Səfəvilər dövlətlərindən başlayaraq müasir Azərbaycan Respublikasına qədər) birləşməsinin əsasını qoydu.

Siyasi sabitliyin olmadığı bir şəraitdə meydana çıxan fikir və əqidə müxtəlifliyi öz növbəsində milli birliyin də qəti qələbəsinə mane olurdu. İslamın bu ərazilərə gəlişi, burada yayılması və bərqərar olması milli birlik üçün zəruri fikir təməli yaratdı. (Paşazadə,1991,s.42)

**Azərbaycanda İslamın yayılması mənbələrdə**

Azərbaycanın erkən orta əsrlər tarixi haqqında əsas mənbə ərəb salnaməçiləri və coğrafiyaşünaslarının əsərləridir. Bu dövrü araşdırmaq üçün, habelə, gürcü, bizans və erməni müəlliflərinin əsərlərinə də müraciət edilir.

Moisey Kalankatuklunun (Kaqankavatsinin) "Ağvan tarixi" əsəri isə bu dövrün araşdırılmasında istifadə etdiyimiz yerli mənbədir. VII yüzilliyin abidəsi Albaniyanın Kalankatuk kəndindən olan Moisey Kalankatuklunun "Albaniya tarixi" əsəri üç hissədən ibarətdir və mütəxəssislər belə hesab edirlər ki, ikinci və üçüncü kitablar X əsrdə yazılmışdır. Demək, üç kitabdan yalnız birinin, yaxud X əsrdə yazılması zənn edilən ikisinin müəllifi Moisey Kalankatuklu ola bilərdi. İkinci müəllif barəsində fikirlər çalpaşıqdır. Bəs bu kitablardan hansının müəllifi Moisey Kalankatukludur? Kitabların üçünün də bir müəllif tərəfindən yazılması fikrini söyləyənlər də var (Kalankatuklu,2006,s. 5).

Tarixçi Mxitar Anetsi bildirir ki, "Ağvan tarixi" VII-VIII əsrlər arasıda yazılmışdır.

Kaqankavatsinin "Tarix"in ilk müəllifi olması haqqında söz açan ilk şəxs Mxitar Ayrivantsi olmuşdur. Lakin həm Mxitar, həm də ondan sonra gələn müəlliflər Kaqankatvatsini "Tarix"in hər üç hissəsinin müəllifi hesab edirlər. (Bünyadov, 2007, s. 14)

N.Y.Marr, K.Patkanov, K.Şahnazaryan və digər tədqiqatçılar "Tarix" materiallarını paralel gürcü və erməni dilli mənbələrlə müqayisə etmək yolu ilə belə nəticəyə gəlmişlər ki, "Tarix" Azərbaycan tarixinə dair mühüm bir mənbədir, əsərdə şərh edilən hadisələr tamamilə səhih və mötəbərdir. (Bünyadov,2007, s. 15-18)

M.Kaqankatvatsi "Tarix" əsərinin II və III hissələrində VII-IX əsrlərdə Azərbaycanın iqtisadi və vəziyyəti haqqında geniş məlumat verir.

İslamın Azərbaycan ərazisində yayılması məsələsi ilə bağlı mühüm mənbələrdən biri də Sebeosun "İmperator İraklinin tarixi" əsəridir. Bu əsərdə də Cənubi Qafqazda İslam dininin yayılması məsələsi öz yerini tapmışdır.

Gevondun "Xəlifələr tarixi" əsəri də 661-ci ildən 788-ci ilə qədər baş verən hadisələri əhatə edir. Əsərdə əsas diqqət xəlifə Əbu Bəkr, Ömər və Osmanın fəaliyyətinə verilsə də Azərbaycan haqqında məlumatlar da kifayət qədərdir. Bu dövr ərəbdilli mənbələrdən isə Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin (838-923) "Tarix ər-rusul və-l-mülük ("Peyğəmbərlərin və padşahların tarixi") mühüm əhəmiyyətə malikdir. Ət-Təbəri də öz növbəsində özündən əvvəlki müəlliflərin - Əbu Abdullah Məhəmməd ibn Ömər Əl-Vaqidi, Əl-Mədaini, Əbu Minəf, Əbu Məşər və s. əsərlərinə müraciət edir. Bu müəlliflər ərəb fəthlərində iştirak etmişlər. Buna görə də onların əsərləri Azərbaycanda İslamın yayılmasını öyrənmək üçün olduqca qiymətlidir. Əbul-Abbas Əhməd ibn Yəhya ibn Cabir Əl-Bəlazurinin Azərbaycan və Arran haqqında ərəb ordularının bu ölkələrə hərbi yürüşləri, Azərbaycan vilayət və şəhərlərinin hakimləri ilə ərəb qoşun başçılarının bağladıqları müqavilələr, ərəb tayfalarının Azərbaycan ərazisinə köçürülüb yerləşdirilməsi barədə verdiyi məlumatlar bizim tədqiqatımız üçün əhəmiyyətli olmuşdur. (Bünyadov, 2007.)

Əbu Məhəmməd Əhməd İbn Əsəm Əl-Kufinin "Kitab əl-futuh"əsəri orta əsrlər Azərbaycan tarixini və İslam dininin Azərbaycanda necə yayıldığını öyrənmək üçün müraciət etdiyimiz mühüm mənbələrdəndir. Onun Xilafət tarixinə dair əsəri Xəlifə Əbu Bəkrin xilafət taxtına çıxmasından (632-ci il) xəlifə əl- Müstəinin ölümünə qədərki (866-cı il) dövrü əhatə edir.

Əl-Kufinin "Kitab əl-Futuh" əsərində Azərbaycanın və qonşu vilayətlərin Əbu-Cəfər əl-Mənsur tərəfindən fəth olunması haqqında məlumatlar A.N.Kurat tərəfindən türk dilinə tərcüməsi ilə çap olunmuşdur. Bu əsərdə Azərbaycanın orta əsrlər tarixi haqqında digər ərəb tarixçilərinin əsərlərində olmayan əhəmiyyətli məlumatlar vardır. Əsərdə ərəblərin Azərbaycana ilk yürüşləri, ərəb canişinlərinin Azərbaycandakı

fəaliyyətləri və s. geniş təsvir olunmuşdur. Həmçinin ibn Əsəm əl-Kufi Azərbaycan şəhərləri haqqında da ətraflı məlumat verir. Onun əsərində orta əsr Azərbaycanının əsas şimal istehkamı olan Dərbənd haqqında mühüm məlumatlar var. Beyləqan, Qazax, Bərdə, Yunan, Bərzənd və başqa şəhərlər haqqında verilən məlumatlar da maraqlıdır. (Əl-Kufi, 1995, s. 5)

**Ərəblərin Azərbaycana daxil olması**

İslamı bütün ərəblər arasında yaymağın vacib sayılması müsəlman başçılarının öz dinləri ilə Ərəbistan hüdudlarından kənara çıxmalarına, Sasanilərin və Bizansın tabeliyində olan İraq və Şam (Suriya) ərəblərinin yaşadıqları ərazilərə qoşun göndərmələrinə səbəb oldu. Beləliklə, 633-cü ilin əvvəllərində, Ərəbistanın Muhəmməd peyğəmbər (s.a.s) dövründə başlanan birləşdirilməsini davam etdirən ilk "raşidi" ("doğru yol tutmuş") xəlifəsi Əbu Bəkr (632-634) yarımada daxilində yürüşləri tam başa çatdırmamış, islamı bütün ərəblərin arasında yaymaq çağırışı ilə sərkərdələrindən Xalid ibn əl-Validin və İyad ibn Ğənmin başçılıq etdikləri qoşun dəstələrini Sasanilərin tabeliyində olan İraqa və Bizansın tabeliyində olan Şama göndərdi. Nəticə etibarilə ərəblərə Ərəbistan hüdudları xaricindən ilk zəfər müjdələrini gətirən bu yürüşlər bir çox xalqların, o cümlədən azərbaycanlıların həyatında az sonra baş verəcək köklü dəyişikliklərin təməlini qoydu. (2,s. 130)

Beləliklə, Azərbaycanın İslam arealına daxil olması prosesi başlandı.

İlk ərəb yürüşləri zamanı Həmədan və Zəncandan tutmuş Bab əl-Əbvaba qədər olan torpaqlar Azərbaycan ərazısi hesab olunurdu. Şimal sərhədi Bab əl-Əbvabadək uzanan Azərbaycanın şimal hissəsi Arran və Sünik Curzanın bir hissəsi ilə birlikdə xəzərlərin tabeliyində idi. (10,s.995)

Xəzər dənizinin xəritəsini çəkən İbn Havqəl, bütün sahil ərazisini Bab əl-Əbvabədək Azərbaycan adlandırır. Əsərin başqa bir yerində müəllif belə qeyd edir: “Qərbə doğru, Rum sərhədlərinə tərəf çevrilib onun şərq hüdudları və islamın ən uzaq hədlərində olan vilayətləri təsvir etməyə başlaşaq, qeyd etdiyimiz ilk ölkələr Ərməniyə, Arran və Azərbaycan olacaqdır. Bir vilayət kimi qeyd etdiyimiz bu ölkələr, şərqdən Cibal, Deyləm və Xəzər dənizinin qərb hissəsilə, qərbdən Ərmən, Allan hüdudu və Cəzirənin bir hissəsilə, şimaldan Allanlar və Qabq dağları ilə, cənubdan isə İraq hüdudu və Cəzirənin şərq hissəsilə əhatə olunmaqdadır”. (Şərifov, 2023, s.993)

Beləliklə, orta əsr ərəb alimləri Azərbaycanı İslamın yayılma arealından uzaq olan ölkələrdən biri kimi tanımışdılar.

İslam fütuhatının Qafqaz ərazisinə keçməsi üçün dayaq nöqtəsi İraqın Mosul və Kufə şəhərləri oldu. Hicrətin 17-ci ilində xəlifə Ömər ibn əl-Xəttabın hakimyyəti dövründə ərəb-islam qoşunları bu şəhərlərdən hücum edib əvvəlcə Rey və Qəzvini tutdular və beləliklədə özlərinə Qafqaza doğru yol açdılar.

Salman ibn Rəbiyyə əl-Bəhili xəlifə Osmanın əmri ilə Arrana hərəkət etdi və Beyləqanı sülh müqaviləsi üzrə tutdu; müqaviləyə görə o, torpaq və can vergisi verməyi onların boynuna qoyur, onun əhalisinin həyatını, mülkiyyətini və onların şəhər divarlarını himayə edirdi. Sonra Salman Bərdəyə gəldi və şəhərdən bir fərsəx aralıdakı Tutur (Tərtər) çayı yaxasında düşərgə saldı. Şəhər əhalisi darvazaları onun üzünə bağladı və o da onunla (şəhərlə) bir neçə gün mübarizə aparmalı oldu. Eyni zamanda o, onun ətrafındakı kəndlərə basqın etdi. Bu (vəziyyət) onları onunla Beyləqan əhalisinin müqaviləsi qaydasında sülh bağlamağa məcbur etdi. Onlar şəhər darvazalarını onun üzünə açdılar; o, şəhərə daxil oldu və bir müddət orada qaldı. O, özünün atlı dəstəsini buradan irəlilətdi və Arrandakı Şakşin (Şakaşen), Meskean (Meskuenk), Ud (Uti), Mesiran (Meseran), Xarxılyan (Xarcityan), Təbər (Teri) və başqa yerləri tutdu. O, Balasican (Balasacan, Balasakan-Kürün aşağı axınında, çayın sağ sahilində - Muğan düzündə vilayət) kürdlərinə İslam dinini qəbul etməyi təklif etdi, lakin onlar buna müharibə ilə cavab verdilər; ancaq o, onların üzərində qələbə çaldı və bir hissəsini can vergisi verməyə məcbur etdi, qalan az hissəsi İslamı qəbul etdi və sadaqat (zəkat) ödədi. (Azərbaycan tarixi üzrə qaynaqlar; S.Əliyarlının redaktorluğu ilə Bakı 2007; s. 68)

Onu da qeyd etmək lazımdır ki, Qafqazda İslam fütuhatının tarixi bir çox başqa yerlərdə olduğu kimi daha çox siyasi müqavilələr tarixini xatırladır: Hicrətin 18-ci ilində Muğanla, 22-ci ilində Şirvanla, 25-ci ilində Təbriz, Talış, Arranla, 30-cu ilində “Ermənistan əhli ilə” və baş-

qaları ilə sülh müqavilələri imzalandı. Başqa şəhər və vilayətlərlə də buna bənzər müqavilələr imzalanmışdı. (6, s.43)

636-cı ildə ərəblərlə sasanilər arasında Qadisiyyə döyüşü baş vermiş və ərəblərin qələbəsi ilə başa çatmışdır. Bu qələbə ərəblərin kütləvi şəkildə ilk dəfə Azərbaycana gəlişini təmin etdi.

Ərəblərlə İran şahı arasında 637-ci ildə Ktesifon döyüşü baş verir. Bu zaman İran şahı III Yəzdigərd idi. Ktesifon döyüşündə onun qoşunları darmadağın edildi, özü isə Dəclə çayı sahilində bir qalada gizləndi. Bu döyüşdə üç minlik alban qoşununun başında Cavanşir dayanırdı. Altı ay davam edən döyüşdən sonra Cavanşir müqavimət göstərməyin mənasız olduğunu anlayıb 639-640-cı illərdə Albaniyaya qayıdır.

Bu dövr hadisələrini bizə çatdıran ərəb mənbələrinin bir qismi ərəblərin Azərbaycan ərazisinə (onun cənub hissəsinə) ilk basqınının məhz həmin illərdə, yəni 639-640-cı illərdə baş verdiyini qeyd edir. Bu müəlliflərdən "fütuhat" haqqında xüsusi kitab yazmış IX əsr ərəb tarixçisi əl-Bəlazuri Azərbaycanın hicri tarixi ilə 18-ci (639-cu) ildə Huzayfa ibn əl-Yəmənin başçılığı ilə sülh yolu ilə alındığı barədə məlumat verir. (2,s. 132)

Beləliklə, bu cür mənbələrdən göründüyü kimi, Azərbaycanın ərəb ordusu tərəfindən fəthi tək hərbi yolla deyil, həm də sülh yolu ilə (müqavilələrlə) baş vermişdir.

**Azərbaycanın fəthi**

Ərəb tarixçisi Əhməd ibn Yahya əl-Bəlazuri (IX əsr) özünün məşhur "Fütuhu'l-Büldan" (Ölkələrin fəthi) əsərində Azərbaycanın İslam orduları tərəfindən fəthini geniş şəkildə təsvir etmişdir. Müəllif bu məlumatı rəvayət ənənəsinə uyğun olaraq, əvvəlcə əl-Hüseyn ibn Amr əl-Ərdəbili, sonra Vakid əl-Ərdəbili, daha sonra onların yetişdirdiyi şeyxlər vasitəsilə nəql olunduğunu bildirir. Bu, onun xəbərlərinin müəyyən sənədlərə əsaslandığını göstərir (Əl-Bəlazuri, 1987, s. 331).

Əsərdə qeyd olunur ki, xəlifə Ömər ibn əl-Xəttab dövründə Kufəyə vali təyin olunan əl-Muğirə ibn Şubə, yanında Azərbaycanın valisi təyin edildiyini göstərən məktubu Hüzeyfə ibn əl-Yəmana göndərmişdir. Məktubu alan Hüzeyfə hərbi yürüşə başlamış və Azərbaycanın inzibati-siyasi mərkəzi sayılan Ərdəbilə gəlmişdir. Burada Sasani idarəçiliyinin nümayəndəsi olan mərzban oturur və bölgənin bütün vergi və gəlirləri ona toplanırdı.

Azərbaycan mərzbanı müsəlman ordusuna qarşı ciddi müqavimət göstərmişdir. O, özünə tabe olan bölgələrdən – Bacervan, Meyməz, ən-Nərir, Serat, əş-Şiz, Əl-Meyanic və başqa yerlərdən – böyük bir ordu toplamış, müsəlmanlarla günlərlə davam edən şiddətli döyüşlər aparmışdır. Bu fakt Azərbaycanın fəthinin hərbi müqavimətlə qarşılandığını təsdiqləyir.

Nəhayət, tərəflər arasında sülh müqaviləsi bağlanmışdır. Şərtlərə görə:

- Azərbaycan əhalisi hər il 8 min dirhəm məbləğində xərac (vergi) ödəməli;
- Müsəlmanlar tərəfindən yerli əhalidən heç kim öldürülməməli və əsir alınmamalı;
- Atəşpərəst məbədləri (atəşgahlar) dağıdılmamalı və yandırılmamalı;
- Belasecan, Sebelan və Sacaran bölgələrinin kürdlərinə toxunulmamalı;
- Əş-Şiz əhalisinin dini mərasimlərdə, bayramlarda "oynama" (ayinlərin icrası) ənənəsinə mane olunmamalı idi.

Bu şərtlər göstərir ki, Azərbaycan əhalisinin dini inanclarına və mədəni adətlərinə qarşı zorakılıq edilməmiş, əksinə onların qorunmasına zəmanət verilmişdir. Beləliklə, İslam fəthləri yalnız hərbi güclə deyil, həm də diplomatik razılaşmalar vasitəsilə həyata keçirilmişdir.

Əl-Bəlazuri əlavə edir ki, Hüzeyfə daha sonra Muğan və Cilan bölgələrinə yürüş etmiş, bu ərazilərin əhalisi ilə də vergi müqabilində sülh müqavilələri bağlamışdır (əl-Bəlazuri, 1987, s. 332).

Beləliklə, əl-Bəlazurinin təsvirindən aydın olur ki, Azərbaycanın İslam xilafətinə daxil edilməsi mərhələli şəkildə, həm silahlı toqquşmalar, həm də sülh müqavilələri yolu ilə gerçəkləşmişdir. Ən diqqətçəkən məqam isə fəthdən sonra yerli əhalinin dini və mədəni hüquqlarının qorunmasına xüsusi diqqət yetirilməsidir. (Əl-Bəlazuri, 1987, s. 372)

**Abadlaşdırılma və şəhərsalma**

Ərəblərin Azərbaycan kəndlərini abadlaşdırıb, şəhər halına salmaları, burada müdafiə sədləri tikib, şəhəri qorumaları haqqında mənbələrdə məlumatlar var. Azərbaycanın şəhərlə-

rinin təşəkkülü prosesi haqqında ən mühüm və ətraflı məlumatlardan yenə əl-Bəlazurinin "Fütuhu'l-Büldan" əsərində əks olunmuşdur. Müəllifin verdiyi məlumatlar göstərir ki, İslam fəthləri dövründə Azərbaycan yalnız siyasi və hərbi baxımdan xilafətə tabe edilməmiş, həm də inzibati və şəhərsalma baxımından yeni mərhələyə qədəm qoymuşdur (Əl-Bəlazuri, 1987, s. 376–377).

Bərzənd

Əvvəllər sadəcə bir kənd olan Bərzənd, xəlifə əl-Mütəsim dövründə (833–842) Babək Xürrəmi üsyanına qarşı göndərilən sərkərdə Afşin Heydər ibn Kavus tərəfindən hərbi düşərgə kimi istifadə olunmuş və qala halına gətirilmişdir. Bu hadisə göstərir ki, bəzən üsyanlar və hərbi əməliyyatlar bölgədə şəhərlərin hərbiləşməsini və inkişafını sürətləndirmişdir.

Marağa

Əvvəlki adı Akrahruz olan Marağa Mərvan ibn Məhəmmədin yürüşləri zamanı mühüm rol oynamışdır. Burada ordunun heyvanlarının otlaması nəticəsində şəhər "əl-Marağa" ("otlaq yeri") adını almışdır. Daha sonra əhali torpaqlarını Mərvana verərək onun himayəsinə keçmiş, şəhərdə binalar tikilmiş, inzibati idarəetmə qurulmuş və nəticədə Marağa abad bir mərkəzə çevrilmişdir. Burada xüsusilə dövlət məmurlarının xalqa ədalətli münasibəti şəhərin cazibəsini artırmışdır.

Mərənd

Əvvəlcə kənd olan Mərənd Həlbəs Əbul-Bais və onun nəslindən gələn şəxslər tərəfindən qala və şəhər halına gətirilmişdir. Bu fakt göstərir ki, yalnız mərkəzi hakimiyyət deyil, həm də yerli nüfuzlu nəsillər Azərbaycan şəhərlərinin təşəkkülündə mühüm rol oynamışdır.

Urmiya

Əl-Bəlazuri Urmiyanı "qədim şəhər" kimi təsvir edir. Əl-Ezd qəbiləsinin azadlısı olan Sədaka ibn Əli və onun qardaşları şəhərin idarəsini ələ almış, burada saraylar tikdirmiş və Urmiyanın yeni mərhələdə siyasi-iqtisadi mərkəzə çevrilməsinə səbəb olmuşlar.

Təbriz

Əvvəldə kiçik bir yaşayış məntəqəsi olan Təbriz, əl-Rəvvad əl-Ezdi və onun oğlu əl-Vəcna ibn əl-Rəvvad tərəfindən abadlaşdırılmış, qala və inzibati mərkəzə çevrilmişdir. Onların fəaliyyəti nəticəsində əhali də Təbrizə köçmüş və şəhər tədricən inkişaf edərək Azərbaycan tarixində mühüm bir şəhərə çevrilmişdir.

Məyanic və Hələbsa

Bu ərazilər Həmdanlı Abdullah ibn Cəfər əl-Həmdani tərəfindən şəhər mərkəzi halına gətirilmiş, dövlət burada rəsmi idarəçilik quraraq minbər qoydurmuş və Məyanic və Hələbsa inzibati status qazanmışdır.

Bərzə və Nəriz

Berze bölgəsində əl-Əvd qəbiləsindən olan bir şəxs xalqı bir yerə toplayaraq qala tikdirmişdir. Nəriz isə əvvəlcə kənd olmuş, Murr ibn Amr əl-Məvsılı tərəfindən abadlaşdırılmış, burada saraylar və bazar salınmış, nəticədə şəhər halına gəlmişdir. Cabrəvan bazarının yaradılması isə ticarətin inkişafına zəmin yaratmışdır.

Əl-Bəlazurinin verdiyi məlumatların təhlili göstərir ki:

1. Azərbaycanın şəhərlərinin çoxu əvvəlcə kənd və ya hərbi düşərgə formasında mövcud olmuşdur;
2. Şəhərlərin inkişafında əsas amillər – ərəb valilərinin hərbi-strateji siyasəti, yerli qəbilə başçılarının təşəbbüsləri və dövlətin qərarları olmuşdur;
3. Şəhərlərin "qala" halına gətirilməsi bir tərəfdən üsyanlara qarşı müdafiə tədbiri, digər tərəfdən isə inzibati idarəetməni gücləndirmək məqsədi daşıyırdı;
4. Ticarət bazarlarının salınması şəhərlərin iqtisadi inkişafını sürətləndirmişdir;
5. İslam fəthləri Azərbaycanın təkcə siyasi mənsubiyyətini deyil, həm də şəhərsalma və sosial-iqtisadi strukturunu köklü surətdə dəyişdirmişdir.

**Nəticə:** Mənbələrdən alınan məlumatlar sübut edir ki, ilk dövrlərdə ərəblərin Azərbaycan torpaqlarına yürüşü heç də işğal səciyyəli deyil, İslam dinini bu ərazilərdə yaymaq üçün edilmiş fəaliyyətdir. Hər şeydən əvvəl xalqımız yeni, mütərəqqi bir dinlə tanış olmuş və bu din bizi indiyə qədər davam edən İslam mədəniyyətinin bir hissəsinə çevirmişdir. Ona görə də Ərəb xilafətinin Azərbaycana yürüşləri yalnız hərbi-siyasi fəthlər kimi deyil, həm də dini-mədəni dəyişikliklərin başlanğıcı kimi qiymətləndirilməlidir.

Ərəb sərkərdələrinin yürüşləri nəticəsində Azərbaycanın bir çox bölgəsində sabitlik təmin olundu, şəhərlər yenidən quruldu, yeni inzibati

vahidlər formalaşdı. Bu, ölkənin ticarət yolları və iqtisadi inkişafı üçün mühüm zəmin yaratdı. Dərbənd, Gəncə, Şamaxı kimi şəhərlər hərbi və mədəni mərkəzlərə çevrildi. Məscidlərin və mədrəsələrin qurulması, ərəb əlifbasının tətbiqi və Quranın tədrisi əhalinin dünya görüşündə köklü dəyişikliklərə səbəb oldu. Lakin bu tarixi proses birtərəfli olmadı, Azərbaycan xalqı İslam mədəniyyətinə öz töhfələrini verdi. Bu ərazidə ərəb və ərəb-fars dillərində yazılmış bir sıra fəlsəfi, dini və tarixi əsərlər, həmçinin memarlıq və incəsənət nümunələri bunun göstəricisidir. İslam dini Azərbaycanda milli kimliyin bir elementi oldu.

## ƏDƏBİYYAT

Azərbaycan tarixi üzrə qaynaqlar. (2007). S. Əliyarlı (Red.). Bakı: Elm.

Azərbaycan tarixi (7 cilddə). (2007). II cild. Bakı: Elm.

Boyce, M. (2001). *Zoroastrians: Their religious beliefs and practices*. London: Routledge.

Bünyadov, Z. (2007). *Azərbaycan VII–XIV əsrlərdə*. Bakı: Elm.

Cəbrayılova, F. (2019). Qədim türklərin İslamaqədərki dünyagörüşü: Tanrıçılıq (tenqrizm) inancı. *Tarix, insan və cəmiyyət*, 2(25), 70–78.

Paşazadə, A. (1991). *Qafqazda İslam: tarix və müasirlik*. Bakı.

Əl-Bəlazuri. (1987). *Fütuhu'l-Büldan*. Beyrut: Daru'l-Kutub al-İlmiyyə.

Əhməd ibn Əsəm əl-Kufi. (1995). *Fəthlər kitabı* (Z. Bünyadov, tərc.). Bakı.

Kalankatuklu, M. (2006). *Alban tarixi*. Bakı.

Şərifov, Ş. (2023). Azərbaycanın Bab əl-Əbvab (Dərbənd) şəhərinin erkən orta əsrlər tarixi ərəbdilli mənbələrdə. *Akademik Tarih ve Düşünce Dergisi*.

## Summary

**Shola Mammadova**

### The inclusion of Azerbaijan into the İslamic sphere

In 630, the Islamic state founded by the Prophet Muhammad (peace be upon him) rapidly expanded over a wide territory. With the expansion of the state, Islam spread to vast regions, including the territory of Azerbaijan, turning our country into a part of a great religious culture.

At the same time, the people of Azerbaijan contributed to Islamic culture. Our nation created a number of religious, philosophical, and historical works, as well as examples of architecture and art.

***Keywords:*** *Azerbaijan, Arab Chaliphate, the İslamic religion, christianity, tengrism*

## Резюме

**Шола Маммадова**

### Вхождение Азербайджана в исламский ареал

В 630 году Исламское государство, основанное пророком Мухаммедом (мир ему), быстро распространилось на обширные территории. С расширением государства Ислам распространился на большие земли, в том числе на территорию Азербайджана, превратив нашу страну в часть великой религиозной культуры.

В то же время азербайджанский народ внес свой вклад в исламскую культуру. Наш народ создал ряд религиозных, философских и исторических трудов, а также образцы архитектуры и искусства.

***Ключевые слова:*** *Азербайджан, Арабский халифат, Исламская религия, христианство, тенгрианство*